Vüsal Bayramlı

# Qara Kürü



# Qara kürü

**Qara kürü** dedikdə, nərəkimilər dəstəsinə aid balıqların kürü başa düşülür. Avropada «caviar», türkiyədə isə «havyar» kimi tanınır.







# Faydası



Kürünün tərkibində insan orqanizmi üçün gərəkli olan mikroelementlər, vitaminlər var. Kürüdə E, A vitaminləriylə yanaşı fosfor, dəmir, kalsiyum da var ki, bu da insanın zehninin güclənməsinə, enerjili olmasına səbəb olur. Kürü görmə qabiliyyətinin də bərpa olmasına səbəb olur, zəifliyi aradan qaldırır. Həmçinin kürü ilə qidalanmaqla cinsi zəifliyi olan insanlar da müalicə olunurlar.

# Tarix



Məlum oldu ki, Xəzər dənizinin sahilində yerləşən Azərbaycanın iqtisadiyyatında balıqçılıq özünəməxsus yer tutsa da, getdikcə bu sahədə özünə düşən payı əlindən çıxarır. Əvvəllər Xəzərdə uzunburun, nərə, bölgə, axçalı balıq növlərindən külmə, sazan, kütüm, karp, xaşam, qarabel siyənəyi, durna balığı, qarasol və kefal balıqları var idi. Neftçaladakı Bankə Balıq Kombinatı fəaliyyət göstərdiyi müddətdə Azərbaycan dünya bazarında ehtiyac duyulan balıq, kürü kimi nemətlərin ixrac mərkəzinə çevrilib. Məsələn, 1930-cu ildə ölkədə 550 ton qara kürü istehsal olunub.

# Tarix




Mingəçevir su elektrik stansiyasının tikintisindən sonra balıqçılığın inkişafında zəifləmə olsa da, sonrakı illərdə problem zavodların hesabına aradan qaldırılıb. Lakin 30 il sonra Bankə Balıq Kombinatı müxtəlif problemlər səbəbindən fəaliyyətini dayandırıb.

2001-ci ildə "Azərbalıq konserni"in ləğvindən sonra hazırda bazarın böyük hissəsinə nəzarət edən "Caspian fish" şirkəti yaradılıb.

# Daxili rəqabət

Azərbaycanda qanuni olaraq nərə balıqlarının tutulması ilə üç şirkət məşğul olur.

"Hazarbalig"
"Lenkeran Baliq Kombinati“
"Neftcala Baliq Kombinati"

# Daxili rəqabət

Qara kürünün emalı və ixracı hüququ
3 şirkətə məxsusdu

"Caspian Fish Co. Azerbaijan“



"KASPI"
"AB Siyazan Fish"



# Azərbaycanda tarixi

2001-ci ili yaranan Caspian Fish şirkəti bu gün kürü və balıq məhsulları istehsalı üzrə təkcə Azərbaycanda deyil, bütün post-sovet məkanında belə lider şirkətlərdən biridir. Hazırladığı məhsulların yüksək keyfiyyətinə görə şirkət dünya şöhrəti qazanmışdır.Caspian Fish yüksək dünya standartlarına uyğun qurulmuş müəssisədir. Təsadüfi deyil ki, təkcə onun açılışı üçün müxtəlif tikinti materialları, avadanlıq və müasir texnologiyaların əldə edilməsinə 56 milyon dollar həcmində xarici investisiya cəlb edilmişdir. Caspian Fish şirkəti 96 çeşiddə balıq məhsulları, o cümlədən yüksəkkeyfiyyətli qara kürü istehsal edir. Qeyd edək ki, CITES və digər beynəlxalq təşkilatlar tərəfindən ciddi nəzarət altında olan kürü emalı və ixracı hüquqları Azərbaycanda yalnız Caspian Fish şirkətinə məxsusdur.

# Qanunvericilik



2001-ci ildə Nazirlər Kabinetinin qərarı ilə "Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların Azərbaycan Respublikasının gömrük sərhədlərindən keçirilməsi Qaydaları"na əsasən fiziki şəxslər **125** qrama qədər balıq kürüsünü ölkədən kənara çıxara bilərdilər.

# Xarici bazar

90%



Dünya üzrə qara kürü emalının 90%  Xəzər dənizi sahili ölkələrinin payına düşürdü 2006-cı ilə qədər.

# CİTES

2006-2007 illər ərzində CİTES(BMT-nin nəsli kəsilməkdə olan flora və fauna növlərinin ticarəti üzrə Beynəlxalq Konvensiyası) yalnız İrana Xəzərdə nərə ovlaması üçün kvota vermişdi. 2007-ci ildə qadağa götürüldü və ölkələrə kvota təyin olundu.

# Hamıya qadağa



Xəzər dənizinin su boiresursları üzrə Komissiyasının qərarı ilə  2012-ci ildən 2017-ci ilə dək bütün xəzəryani ölkələrdə nərənin ovlanması, kürüsünün istehsalı və satışı qadağan olunub.

# Digər istehsalçılar

- Çin – 35 ton
- Səudi Ərəbistan – 8 ton
- İzrail – 4 ton
- Moldaviya – 1 ton

# Ölkə üçün perspektiv

- Əlavə iş yerlərinin açılması
- Ölkəyə xarici valyuta (dollar) axını
- Vergilər

# TƏŞƏKKÜRLƏR!!!